**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№259/4** **27 dekabr 2014-cü il**

**"Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda" haqqında**

"Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyası"nın VI bölməsinin 16-cı "Xarici təcrübə nəzərə alınmaqla auditorlarn reytinq səviyyəsinin müəyyən edilməsi" bəndinə və Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar təsdiq edilmiş "Audit sahəsində qabaqcıl təcrübənin öyrənilməsinə dair" Plan-proqramın 4-cü "Auditorların reytinq səviyyəsinin müəyyən edilməsi" bəndinin icrası ilə əlaqədar, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurası tərəfindən təsdiq edilmiş "Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda"nın yeni redaksiyası ilə əlaqədar sədrin elmi-metodik məsələlər üzrə muşaviri N.Talıbovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** 2015-ci il üzrə auditorların (auditor təşkilatlarının) reytinqi göstərilmiş auditor xidmətinin ümumi həcmi əsasında, keyfiyyətə nəzarət yoxlamasından yayınan auditorlar (auditor təşkilatları) reytinq siyahısına daxil edilməməklə müəyyən edilsin.

**2.** Sədrin müşaviri F.Qarayevə və Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**